# Sahibkarlığın inkişafına dövlət dəstəyi

Mayın 23-də İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu «Sahibkarlığın inkişafına dövlət dəstəyi» mövzusunda növbəti tədbirini Qəbələ rayonunun Hacıalılı kəndində keçirmişdir. Tədbirdə Qəbələ və ətraf rayonlarda fəaliyyət göstərən 80-dək sahibkar iştirak etmişdir.

Tədbirdən əvvəl Qəbələ rayonunun Böyük Əmili kəndində Sahibkarlığa Kömək Milli Fondundan ayrılmış güzəştli kreditlə tikilib istifadəyə verilmiş illik gücü 6,7 min ton süd istehsalı olan 1000 başlıq cins iribuynuzlu heyvandarlıq kompleksinin fəaliyyətinə baxış keçirilmişdir.

«Sahibkarlığın inkişafına dövlət dəstəyi» tədbiri çərçivəsində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Qəbələ rayonunun iqtisadi potensialının reallaşdırılması istiqamətində müzakirələr aparılmış və fond tərəfindən prioritet hesab olunan bağçılıq, kiçik cins heyvandarlıq və arıçılıq təsərrüfatlarının, meşə meyvələrinin və balın sənaye üsulu ilə emalı və qablaşdırılması müəssisələrinin yaradılması üzrə nümunəvi






investisiya layihələrinin təqdimatı keçirilmiş, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin 100 faizədək hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilmiş, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanmışdır.

Tədbirdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Rahib Əhmədov son illər regionların sürətlə inkişaf etdiyini, dövlət başçısının diqqət və qayğısı nəticəsində məşğulluq səviyyəsinin yüksəldiyini bildirmişdir. Qeyd olunmuşdur ki, ölkəmizin bütün regionlarında olduğu kimi, Qəbələdə də yeni istehsal və xidmət müəssisələri, sosial infrastruktur obyektləri yaradılır, yeni iş yerləri açılır. Hazırda bu sahədə işlər davam etdirilir.

İqtisadi İnkişaf Nazirliyi sahibkarlığın inkişafı siyasəti şöbəsinin müdir müavini Hüseyn Paşayev və Şəki—Zaqatala regional bölməsinin müdiri Qalib Məsimov qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması nəticəsində ölkənin davamlı sosial-iqtisadi inkişafına nail olunduğunu, sahibkarlıq fəaliyyətinin genişləndiyini vurğulamış, «Azərbaycan Respublikası regionlarının 2009—2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq, Qəbələ rayonunda həyata keçirilən tədbirlər və görüləcək işlər barədə məlumat vermişlər.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktoru Şirzad Abdullayev bildirmişdir ki, bu ilin ötən dövrü ərzində 1421 investisiya layihəsinin maliyyələşdirilməsinə 145,6 milyon manat güzəştli kredit verilmişdir. Bu layihələrin reallaşdırılması 5300-dən çox yeni iş yerinin yaradılmasına inkan verir.

İndiyədək (bugünkü tədbirdə verilən kreditlər də daxil olmaqla) Şəki—Zaqatala iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 1350 investisiya layihəsinin maliyyələşdirilməsinə 81,2 milyon manat güzəştli kredit verilmişdir.

Tədbirin sonunda Qəbələ rayonu və ətraf rayonlarda fəaliyyət göstərən 42 sahibkar 767,5 min manat güzəştli kredit almışdır. Bu kreditlər hesabına 80-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Verilmiş kreditlər əsasən taxılçılıq, heyvandarlıq, quşçuluq sahələrinin inkişafına yönəldiləcəkdir.

**Oqtay MƏMMƏDOV.**

# Beynəlxalq Ailə Günü münasibətilə tədbir keçirilmişdir

14 may 2013-cü il tarixdə Qəbələ şəhərində “15 May Beynəlxalq Ailə Günü” münasibətilə Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən Qəbələ şəhər sakini Aslanova Leyli Polad qızının 105 illik yubileyi qeyd edilmişdir. Yubiley tədbirində Uşaq və Ailələrə Dəstək mərkəzinin kollektivi, Leyli Aslanovanın ailə üzvləri, qohumları və qonşularından ibarət 50 nəfər iştirak etmişdir.

Yubiley tədbirini açan Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəna Mahmudova «15 May Beynəlxalq Ailə Günü» barədə geniş məlumat vermiş, ailə dəyərlərindən söhbət açmış, yubilyarı və tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmişdir.

UADM-in direktoru R. Mahmudova Ailə Günü münasibətilə 1908-ci ildə anadan olmuş Leyli Aslanovanı 105 illik yubileyi münasibətilə təbrik etmiş, ona və iştirakçılara can sağlığı və uzun ömür arzulamışdır.



Şəhər sakini, 105 yaşlı Leyli Aslanova tədbirin təşkilatçılarına və tədbirdə iştirak edənlərə öz təşəkkürünü bildirmiş, Böyük Vətən müharibəsi illərində keçdiyi çətin yoldan və bu gün respublika Prezidenti cənab İlham Əliyev tərəfindən vətəndaşlar üçün yaradılmış şəraitdən söhbət açmışdır. Tədbir iştirakçıları ilə birlikdə rəqs edən Leyli xanım belə bir tədbiri keçirdiyi üçün Qəbələ UADM-in rəhbərliyinə və tədbirdə iştirak edən hər bir kəsə öz minnətdarlığını bildirmişdir.

Tədbirin sonunda UADM-in direktoru Rəna Mahmudova Leyli xanım Aslanovaya və ailəsinə qiymətli hədiyyələr təqdim etmişdir.

**Hökumə İSMAYILOVA,**
**UADM-in psixoloqu.**

# Şagirdlər hesabat verirlər

Qəbələ İncəsənət Məktəbinin şagirdləri ənənəvi olaraq hər tədris ilinin sonunda öz rəngarəng hesabat xarakterli konsert proqramı ilə çıxış edirlər. Bu dəfə təşkil olunmuş musiqi çələngi isə ümummilli lider, bütün xalqın, xüsusilə də uşaqların sevimlisi ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuşdu.



Tədbirə şagirdlərin valideynləri ilə yanaşı qonaqlar da dəvət almışdılar.

Hesabat konsertinin başlanmasından öncə çıxış edən Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova, incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev, rayon icra hakimiyyətinin nümayəndəsi Vüsalə Rəsulova buraya toplaşanları salamladılar, ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açdılar, əziz balalarımıza yaratmış olduğu bu gözəl şəraitə və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

Sonra meydan gənc istedadlara verildi. Şagirdlərdən Ceyhun Mehdiyevin, Aytac Hümbətovanın, Səmra Abdurahmanlının, Emin Həmidovun, Zeynəb Xanlarovanın, Rəvanə Həmidovanın, Təranə Şirinbəylinin və digərlərinin ifaları və çıxışları sürəkli alqışlarla qarşılandı. Konsertmeyster Samir Sadıqlının, ansamblın bədii rəhbəri Aqil Həmidovun, müəllimlərdən Aytən Nadirovanın, Elxan Tağıyevin, Xəqani Abdusalamovun, Elman Əfəndiyevin və başqalarının əməyinin hədər getmədiyi aşkar oldu. Üzeyir Hacıbəylidən, Qara Qarayevdən, Tofiq Quliyevdən, Arif Məlikovdan, Fikrət Əmirovdan, Vaqif Mustafazadədən, Əfsər Cavanşirovdan səslənən bəstələr buraya toplaşan tamaşaçıları feyziyab etdi.

Çıxış edən valideynlər çəkdikləri zəhmətə görə müəllimlərə təşəkkürlərini bildirdilər, müəllimlər isə öz növbələrində bu əməyin qarşılıqlı olduğunu söylədilər.

Tədbiri incəsənət məktəbinin direktoru Əhməd Qəndiyev yekunlaşdırdı.

**Foto və mətn**
**Səhrab UMUYEVİNDİR.**